# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyası: nələr dəyişir?



5


№ 021 (7431)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

12 mart 2026-cı il.
Qiyməti 1 manat


## "Avropa İttifaqı bizim üçün bir nömrəli ticari tərəfdaşdır"

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə görüşüb


2

# ABŞ-dan İran QƏRARI - quru əməliyyatı başlayır?


4

## Planet isinir: hər onillikdə 0,35C dərəcə


7

## Milli təhlükəsizliyin əsas dayağı


6

## Borcu qaytarmayan şəxsin əmlakına və bank hesabına məhdudiyyət qoyula bilərmi?



8

## İçdiyimiz su nə qədər safdır?


4

## Moskva Bakıya əl uzadır - Putinin zəngi nələri dəyişəcək?


5

# “Avropa İttifaqı bizim üçün bir nömrəli ticari tərəfdaşdır”

## Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə görüşüb







Martın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə təkbətək görüşü olub. Əvvəlcə dövlətimizin başçısı İlham Əliyev və Antonio Koşta birgə foto çəkdirdilər. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış edib. Prezident İlham Əliyev öz bəyanatında diqqətə çatdırıb ki, bu səfər indiki dövrdə çox uğurla inkişaf edən ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm rol oynayacaq.

”Mən Avropa İttifaqı Şurasının Prezidentini salamlayıram. Cənab Prezident, Sizi qəbul etməkdən çox məmnunam. Ötən il iki dəfə görüşmüşük və çox yaxşı müzakirələrimiz olub. Yadınızdadırsa, mən Sizi Azərbaycana səfərə dəvət etdim. Dəvətimi qəbul etdiyinizə görə minnətdaram. Biz Sizin səfərinizə çox böyük önəm veririk. Əminəm ki, o, xüsusən də indiki dövrdə çox uğurla inkişaf edən ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm rol oyanacaq. Bizim çox fəal dialoqumuz var. Avropa Komissiyasının üzvləri ötən il və bu il dəfələrlə bizə səfər ediblər. Beləliklə, biz müxtəlif səviyyələrdə tərəfdaşlığın fəal mərhələsindəyik. Mən bəzi iqtisadi göstəricilərə nəzər saldım və gördüm ki, bu ilin yanvarında ticari dövriyyəmizin 50 faizi Avropa İttifaqı ilə bağlı olub. Ötən il dövriyyə bir az aşağı olmuşdur, lakin o, həqiqətən göstərir ki, Avropa İttifaqı bizim üçün bir nömrəli ticari tərəfdaşdır. Əminəm ki, yeni layihələr və yeni investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq. Hazırda biz, həmçinin Avropada fəal şəkildə sərmayə yatırırıq. Ticari dövriyyəmiz birmənalı olaraq artacaq. Tərəfdaşlığımızın mühüm hissəsi hər zaman enerji əməkdaşlığı olub, var və birmənalı olaraq olacaq. Bu, xüsusən də 2022-ci ildə Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında sənədi Avropa Komissiyası ilə imzaladığımızdan sonra müşahidə olunur.

Həmin vaxtdan etibarən biz həm həcm, həm də ölkələrin sayı baxımından Avropa ölkələrinə qaz ixracımızı artırmışıq. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qazı qəbul edir və ölkələrin ümumi sayı 16-ya çatıb. Bu göstəriciyə görə biz dünyada boru kəməri ilə qazı təchiz edən bir nömrəli ölkəyik. On altı ölkə bu gün Azərbaycan qazını alır və beləliklə, bir çox ölkələrin enerji təhlükəsizliyində oynadığımız rol artır.”

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, enerji sahəsində əməkdaşlığımızın digər istiqaməti bərpaolunan enerji ilə bağlıdır ki, onun da böyük potensialı var. Biz külək, Günəş və su elektrik enerjisinə böyük sərmayələr yatırırıq. Planımız beş və ya altı il ərzində ixraca hazır olan 6-8 qiqavatlıq bərpaolunan enerjiyə malik olmaqdır. Bir sözlə, hazırda biz Avropa tərəfdaşları ilə ötürülmə xətləri, dəniz dibi kabelləri, enerji infrastrukturunun digər fərqli hissələri üzərində çalışırıq.

”Bu gün gəldiyiniz zaman hər ikimiz Bakıda çox günəşli havanı qeyd etdik. Bahar gəlir. Əslində, düşünürəm ki, bizim burada 300-dən çox günəşli günümüz olur və ola bilsin, küləkli günlər daha çoxdur. Təsəvvür edə bilərsiniz ki, külək və Günəş enerjisinin burada böyük potensialı var. Əlbəttə, biz daha sıx işləməyə çalışırıq, çünki Avropa qitəsinə daxil olmazdan əvvəl, siz bütün tranzit razılaşmaların icrası məqsədilə bir çox ölkələrlə işləməlisiniz. Təbii ki, xüsusi olaraq, Ermənistanla paraflanmış sülh sazişinə nail olduqdan sonra daşımalar ikitərəfli gündəliyimizin mühüm hissəsidir. Orta Dəhlizin genişlənməsi üçün yeni imkanların açılması, təbii ki, nikbinliyimizi artırır. Cənab Prezidentə söylədiyim kimi, biz cəmi yeddi aydır ki, sülh şəraitində yaşayırıq. Müstəqilliyimiz hələ 1991-ci ildə bərpa olunub. Bununla belə, cəmi yeddi aydır ki, sülhdə yaşayırıq. Lakin biz bunun faydasını artıq hiss edirik və əminəm ki, Ermənistanla sülh daimi olacaq. Biz, həmçinin ticarətə başlamışıq. Ermənistana mühüm neft məhsullarının təchizatına başlamışıq. Digər ölkələrdən Azərbaycan ərazisi vasitəsilə Ermənistana gedən yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırmışıq. Bu isə bir daha güclü siyasi iradəmizi göstərir, çünki biz sülhə təkcə iki ölkənin parafladığı sənəd üzərində deyil, həmçinin əyani şəkildə nail oluruq.”

Sonra Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta bəyanatla çıxış edib. O, Avropa İttifaqının Azərbaycan xalqı ilə tam həmrəyliyini ifadə edərək, Avropa vətəndaşlarının İrandan təhlükəsiz şəkildə öz ölkələrinə qayıtmasına şərait yaratdığı üçün Azərbaycanın göstərdiyi yardıma görə səmimi minnətdarlığını açıqlayıb.

” Azərbaycan Respublikası Avropa İttifaqının əsas tərəfdaşıdır. Ötən bir il ərzində biz münasibətlərimizi yenidən canlandırmışıq. Bugünkü görüş bizim xüsusilə təhlükəsizlik, enerji, rəqəmsal və nəqliyyat sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsinə olan birgə öhdəliyimizin bariz əlamətidir. Təhlükəsizlik və insan haqları da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam şəkildə istifadə etmək məqsədilə hazırda biz Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq üçün yeni çərçivə üzərində işləyirik. Bu, bizim gələcəyə birgə baxışımıza dair güclü siqnal verir. Biz, həmçinin müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığımızı dərinləşdirmək üçün yollar araşdırırıq.

Prezident Əliyevin söylədiyi kimi, enerji təhlükəsizliyi ikitərəfli əməkdaşlığımızın təməlini təşkil edir. Dörd il bundan əvvəl Versalda Avropa İttifaqı Şurası qaz, neft və kömürün təchizatı mənbələrinin şaxələndirilməsinə dair qərar qəbul etdi. Azərbaycan Cənub Qaz Dəhlizi sayəsində bu səylərdə həlledici rol oynadı. Bu gün nəticə göz qabağındadır. İrandakı müharibənin qlobal enerji bazarlarını sarsıtdığı bir vaxtda bizim enerji sahəsində hazırkı tərəfdaşlığımız heç zaman olmadığı kimi daha əhəmiyyətlidir. Avropa İttifaqı Azərbaycanın enerji keçidini dəstəkləmək üçün özəl investisiyaları və maliyyələşməni səfərbər etməyə hazırdır. Biz, həmçinin Avropanın təmiz texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlərini sizin geniş planınızda daha fəal iştirak etməyə çağırırıq.

Daşımalar bizim əməkdaşlığımızın başqa bir mühüm sahəsidir. Orta Dəhlizin inkişafı yeni nəqliyyat bağlantıları üçün strateji fürsətdir. Bakı-Naxçıvan dəmir yolu əlaqəsinin tamamlanması bu mənada böyük əhəmiyyət kəsb edəcək. Avropa ilə Asiya arasında ticarət dayanıqlılığını gücləndirməklə biz iş yerləri yarada, artımı stimullaşdıra və iqtisadiyyatlarımızı birlikdə gücləndirə bilərik. Avropa İttifaqı Azərbaycanın dinc, sabit, qarşılıqlı əlaqələrə əsaslanan və çiçəklənən Cənubi Qafqaz hədəfini bölüşür. Ermənistanla sülh prosesində əldə edilən irəliləyiş tarixi əhəmiyyət kəsb edir.

Vaşinqton razılaşmaları sizin dialoq və barışığa sadiqliyinizi əks etdirir. Avropa İttifaqı bu razılaşmaların həyata keçirilməsinin dəstəklənməsində sizin yanınızdadır. Biz həqiqi sülhün təkcə siyasi razılaşmalar, Sizin dediyiniz kimi kağız üzərində yox, insanların gündəlik həyatları, iqtisadi-ticari əlaqələr və ortaq rifah üzərində qurulduğunu bilirik. Qarşılıqlı iqtisadi asılılığın gücləndirilməsi uzunmüddətli sabitliyə aparan birmənalı yoldur və Avropa İttifaqı hamının faydası üçün bu imkanlardan yararlanmağa kömək etməyə hazırdır. Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir. Mən İranda və Yaxın Şərqdə baş verən, sizə çatmış təhlükəli hərbi eskalasiya fonunda üzləşdiyiniz çağırışları bilirəm. İcazə verin, bir daha Avropa İttifaqı adından Azərbaycan və onun xalqı ilə tam həmrəy olduğumuzu ifadə edim.

Biz bu yaxınlarda İran tərəfindən Naxçıvan hava limanına edilmiş hücumu qətiyyətlə pisləyirik. Regional sabitliyi və təhlükəsizliyi Beynəlxalq Millətlər Təşkilatının və beynəlxalq hüququn prinsiplərinə tam riayət edərək qorumaq zəruridir. Avropa İttifaqı bütün gərginliyi azaltmaq və vətəndaşları qorumaq üçün dialoq və diplomatiya vasitəsilə bütün tərəfdaşlarla işləməyə sadiqdir. Vəziyyətin daha da kəskinləşməsi təkcə Yaxın Şərqi deyil, Avropanı və daha geniş dünyanı təhlükə altına atır. Bununla belə, cərəyan edən son hadisələr beynəlxalq hüquqa zidd olaraq zorakı fəaliyyətin narahatedici tendensiyasını bildirir. Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsi artıq beşinci ildir ki, davam edir. Bu müharibə Avropa üçün ekzistensial təhlükə olaraq qalır və qlobal miqyasda vəziyyəti poza biləcək amildir.

Qlobal sabitsizlik fonunda aramızdakı əlaqələri gücləndirmək heç zaman olmadığı qədər vacibdir. Biz 2028-ci ildə Azərbaycanın Avropa Siyasi Birliyinin Zirvə Görüşünə ev sahibliyi etməsini səbirsizliklə gözləyirik. Sonda icazə verin, bir daha vurğulayım ki, Avropa İttifaqı bu günün çağırışlarını sabahın fürsətlərinə çevirmək üçün Azərbaycanla işləməyə sadiqdir. Sizin rəhbərliyiniz zəruridir və bizim tərəfdaşlığımız güclüdür. Biz onu xalqlarımızın rifahı naminə birlikdə daha da genişləndirə bilərik. Növbəti aylarda Sizi Brüsseldə qəbul edəcəyimə ümid edirəm.”

## Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı olub

Martın 11-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Vladimir Putin Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində göstərilən operativ köməyə, həmçinin ölkəsinin İrana göndərdiyi humanitar yardımın Azərbaycan ərazisindən keçməsinə yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Telefon söhbəti zamanı liderlər Yaxın Şərqdə hərbi əməliyyatların tezliklə dayandırılmasının və münaqişənin siyasi-diplomatik yollarla həllinin vacibliyini vurğulayıblar.

Dövlət başçıları ikitərəfli gündəliyin aktual məsələlərini müzakirə ediblər. Strateji tərəfdaşlıq və müttəfiqlik prinsiplərinə uyğun olaraq Azərbaycanla Rusiya arasında qarşılıqlı fəaliyyətin müxtəlif sahələrdə gələcək inkişafında qarşılıqlı niyyət təsdiqlənib.

# Milli-mənəvi dəyərlərimiz üzərində qurulan gələcək



***"Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır" - İlham Əliyev***

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mənəvi dəyərlərə müəyyən təhlükə meyilləri də özünü qabarıq göstərir.

## Milli-mənəvi dəyərlərin aşılanmasında məktəblərin rolu

Şərq-Qərb sivilizasiyasının bir-birinə yaxınlaşdığı, bəzən də gizli və açıq mübarizələrin getdiyi bir zamanda soykökə qayıdışın, milli özünüdərkin böyük əhəmiyyəti vardır. Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək əsas vəzifələrdəndir.



Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması xüsusilə aktuallıq kəsb edir. Ümummilli liderimiz Heydər Əliyevin təbirincə desək, "Gənclərimiz milli ruhda, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır".

Respublikanın gələcək taleyi onun gənclərindən asılı olduğu üçün təhsildə aparılan islahatlar milli ənənələrimizə, milli dəyərlərimizə söykənərək soykökünə bağlı şəxsiyyətin formalaşdırılmasına xidmət etməlidir. Müasir tərbiyədə məktəbli-müəllim-valideyn münasibətlərinin yeni prizmada tənzimlənməsi, tərbiyə işində ideal məqsədin məzmununun müasir tələblər baxımından dəyişməsi, yeniləşməsi və təkmilləşməsi humanitar fənlərin məzmununda ifadə olunmuş milli-mənəvi dəyərlərə kompleks yanaşmağı tələb edir. Milli soykökə qayıdış, milli özünüdərk ailədə uşaqların tərbiyəsindən başlayaraq məktəbəqədər müəssisələrdə və orta məktəblərdə davam etdirilməlidir.

## Milli-mənəvi dəyərlərin ailədən formalaşması

Şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin rolu böyükdür. Əsas dəyərlər məhz ailədə doğulur və formalaşmağa başlayır. Azərbaycanlı milli düşüncəsində ailə kiçik dövlət modeli kimi qəbul edilməklə, müqəddəs və ülvi sayılır. Böyüklərə ehtiram və hörmət, uşaqlara sevgi, diqqət və qayğı zəngin milli-mənəvi dəyərlərimizin başlıca qayəsini təşkil edir. Gənclərin ədalət və düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, xeyriyyəçilik, cəsarət və şücaət, mərdlik, təmizlik, halallıq, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsindən əsas rollardan birini də ailə oynayır. Ona görə də, ailələrdə bu məsələlərə viddi fikir verilməlidir.



Təlim-tərbiyə işinin təşkilində dini maarifləndirilmənin də rolunu xüsusi qeyd etmək lazımdır. Bütün əxlaqi kateqoriyaların şərhi yolu ilə gənclərə sağlam həyat tərzi, düzgün yaşam fəlsəfəsi təbliğ olunmalı, milli-mənəvi və bəşəri dəyərlərə sadiqlik prinsipi önə çəkilməlidir. Gənc nəslin tərbiyəsində bədii ədəbiyyatın, mədəniyyətin, incəsənətin, folklor nümunələrinin, o cümlədən tanınmış yazıçı və şairlərin əsərlərinin mühüm rolu vardır. Eyni zamanda, vətəndaşlarda dövlətçilik təfəkkürünün, millətə, Vətənə bağlılıq hisslərinin gücləndirilməsi baxımından dövlət atributlarına- Azərbaycanın bayrağına, himninə, gerbinə ehtiram və hörmətin vacibliyi təbliğ edilməlidir.

## "Gənclər milli-mənəvi dəyərlərimizlə tərbiyə olunmalıdır"

Ümummilli lider bunu belə təsvir etmişdir: "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər hec vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir".

Milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyi mərhum Heydər Əliyevin məruzə və çıxışlarında həmişə qürurla söylənilirdi. O, göstərirdi ki, milli-mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir. Ümummilli liderimiz Heydər Əliyev bu sahədə görüləcək işlərin perspektivini müəyyənləşdirmişdi: "Biz oz dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan kecmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Hec vaxt iki xalq bir-birinə bənzəməz və oxşar dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik".

## Milli-mənəvi dəyərlər deyilərkən nələr nəzərdə tutulur?

Milli-mənəvi dəyərlər, əlbəttə, çox geniş məfhumdur. Lakin burada birinci növbədə torpaq, dil, ocaq, əcdad, övlad və qadınla bağlı şərəf, ləyaqət və namus ənənələrini nəzərdə tutmaq lazımdır. Müasir Avropada və Amerikada bir sıra xalqların milli faciə, qlobal fəlakət kimi yaşadığı müasir əxlaqi demoqrafik bəlalara qarşı ən yaxşı sipər milli-mənəvi dəyərlərimizdir.

Müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasətinin həyata kecirilməsində əsas çətinliklərdən biri də qloballaşmadır. Müstəqilliyə qədəm qoymuş gənc bir dövlət üçün qloballaşma adı altında milli-mənəvi dəyərlərinin sıxışdırılması, onun məhvinə gətirib cıxara bilər. Qloballaşma beynəlxalq aləmdə labüd olan bir proses kimi həyatımızdan yan kecə bilməz. Bir şərtlə ki, bu prosesdən ümumi inkişafımız üçün səmərəli istifadə edə bilək.

Azərbaycan dünyada multikulturalizm dəyərlərinin nümunəsi kimi, etnik, dini, sosial mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər, həmrəy və qarşılıqlı dostluq şəraitində yaşadığı unikal ölkələrdəndir. Bu bəşəri dəyər olmamışdan əvvəl bizim milli dəyərimiz olub- lap qədimdən bu ənənə yaşadılıb bu günlərə kimi davam etdirilir. Hazırda isə bu, həm dövlət siyasəti, həm də ictimai münasibətlər sistemi kimi inkişaf etdirilir.

Ölkəmizin gələcəyi gənclərdən asılıdır. Milli-mənəvi dəyərlərimizi də, gələcək elmi-texniki, sosial-iqtisadi inkişafımızı da gənclər qoruyacaq, təmin edəcək, yaşadacaq.

***Elçin Bayramlı***

# ABŞ-dan İran QƏRARI - quru əməliyyatı başlayır?

Qlobal enerji böhranının hər keçən günü ABŞ və müttəfiqlərinin İrana quru hücumu ehtimalı azalır. Lakin belə bir ssenarini tamamilə istisna etmək olmaz. Buna görə də, İranda ABŞ-İsrail cütlüyünün "quru hücumu" üçün nəzəri variantları nəzərdən keçirməsi mümkündür. Əvvəlcə, mümkün ABŞ əməliyyatı ssenarisini nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, İran bir qaladır. Demək olar ki, hər tərəfdən dağlarla əhatə olunub və bu da quru hücumunu olduqca çətinləşdirir. İraqdan normal hücum və irəliləyiş yalnız Bəsrə bölgəsində mümkündür. İraq-İran sərhədi boyunca şimaldakı hər şey Zaqros dağları ilə qorunur - dar və seyrək keçidləri olan 2000-4000 metr hündürlüyündə möhkəm bir maneə, burada zirehli texnika sütunu dronlar, tank əleyhinə raketlər və müxtəlif növ artilleriya üçün asan hədəf olacaq, dağıntılar və mina tələlərinin yaradılmasından danışmırıq. Dağlardan irəliləmək Əfqanıstandakı Sovet müharibəsinin təkrarı olardı.

Lakin Fars körfəzi yaxınlığındakı düzənlik ərazidə məhdud hücum əməliyyatı mümkündür. Lakin ABŞ-ın bütün İranı işğal etməsinə ehtiyac yoxdur; o, yalnız əsas neft ehtiyatlarına malik və əsasən ərəblərin yaşadığı Xuzistan əyalətini nəzarətə götürməlidir. Daha sonra İranın hesabına mövqelərini yaxşılaşdırmaq istəyən müxtəlif etnik qruplardan olan Amerika müttəfiqləri (vəkilləri) müdaxilə edəcəklər. İranı parçalamaq üçün təxmini plan artıq Amerika, Türkiyə və Ərəb televiziyalarında nümayiş etdirilib.



Amerikalılar həmçinin dünyanın ən böyük qaz yatağı olan Cənubi Parsın (İranın ümumi qaz ehtiyatlarının təxminən 50%-i) yerləşdiyi sahil İran əyaləti Buşehr üzərində nəzarəti ələ keçirməyə cəhd edə bilərlər. ABŞ Dəniz Piyadaları Korpusu həmçinin Hörmüz boğazına və İranın qalan neft, qaz və ticarət infrastrukturuna nəzarəti ələ keçirmək üçün Bəndər Abbas, Xarq və Çabahar adaları yaxınlığındakı cənub bölgəsinə amfibiya desantını buraxa bilər. Bu ərazidə həmçinin böyük bir ərəb əhalisi yaşayır. İranın sularının və sahil xəttinin minalanması, eləcə də "ağcaqanad donanması" (çoxsaylı yüksək sürətli qayıqlar), İran qüvvələri bu ərazidə çoxlu sayda gəmi əleyhinə raket toplamadığı təqdirdə, işğalı yalnız müvəqqəti olaraq təxirə sala bilər.

Hazırda ABŞ-ın bölgədəki silahlı qüvvələrin bütün qollarından təxminən 50.000 əsgəri var. 200.000 əsgərin cəmləşməsi Pentaqonun hərəkətə başlamasına imkan verəcək. Lakin qüvvələrin və resursların yerləşdirilməsi aylar çəkəcək ki, Trampın da bunu etməməsi mümkündür. Üstəlik, ABŞ Konqresi cəmi 10 gün ərzində 6 milyard dollar xərclədiyi üçün açıq şəkildə bahalı bir kampaniya başlatmaqdan çəkinir. Amma zaman göstərəcək.

Ən çox maraq doğuran məqam əsasən İranın qərb və şimal-qərb əyalətlərində yaşayan yerli kürdlərin davranışıdır. İndiyə qədər İraq və İran kürd qrupları "oddan isti şabalıd çıxarmaq"dan çəkiniblər. Lakin bu, dəyişə bilər. Şərqin incə bir məsələ var: "Xəyanəti və tamahkarlığı heç vaxt kiçiltməyin". Ola bilsin ki, onların döyüş bölmələri hələ işğala hazır deyil və ABŞ-ın dəstəyi ilə yenidən silahlanma, koordinasiya və taktika və ortaq strategiya hazırlayırlar. Kürdlər dağlarda necə döyüşməyi bilirlər, ona görə də Şimali İraqdan İran Kürdüstanına (Sənəndəc, Mahabad, Kermanşah) hücum istənilən an başlaya bilər. Kürdlərin də bütün İrana ehtiyacı yoxdur, onlar yalnız sıx məskunlaşdıqları əraziləri nəzarətə götürmək istəyəcəklər.

Azərbaycanlılarla bağlı işlər bir az daha mürəkkəbdir, çünki onların xeyli hissəsi İranda özlərini olduqca rahat hiss edirlər. Lakin separatizmin ortaya çıxması, xüsusən də Tehranın ətraf ərazilərini dəstəkləmək üçün imkanlar tükəndikdə istisnalar ola bilər. İranın Ermənistandan ayrılma ehtimalı da var. Həmçinin, onilliklərdir İran, Əfqanıstan və Pakistan ərazilərindən öz milli dövlətlərini yaratmaq arzusunda olan İranın cənub-şərqində yaşayan bəluc xalqını da unutmamalıyıq.

Eyni zamanda, Əfqanıstan Talibanı da iranlılar üçün kədər yarada bilər, çünki onlar bunu necə etməyi bilirlər. Lakin, İranın şimal-şərqi təkcə Əfqanıstana yaxınlığı səbəbindən qeyri-sabitləşə bilər, çünki orada çoxlu kürd və türkmən yaşayır. Beləliklə, Tehrandakı mərkəzi hökumət özünü İran üçün ən uyğun olmayan anda qəfil hərəkətə keçə biləcək düşmənlərlə əhatə olunmuş vəziyyətdə tapır.

**V.VƏLİ**



*EKSPERT DANIŞDI*

# İçdiyimiz su nə qədər safdır?

"Dünyanın bir çox şəhərlərində olduğu kimi, Bakı şəhərində də əhaliyə təqdim olunan içməli su ümumilikdə ekoloji baxımdan təmizlənmiş şəkildə verilir".

Bu sözləri SİA-ya açıqlamasında ekoloq Rövşən Abbasov bildirib. Onun sözlərinə görə, bu suyun tərkibində insan sağlamlığı üçün birbaşa təhlükə yaradan maddələr, adətən, mövcud olmur: "Lakin əsas problemlərdən biri suyun istehlakçılara çatdırılması prosesində, yəni paylayıcı şəbəkə vasitəsilə daşınması zamanı müəyyən çirklənmələrə məruz qalmasıdır. Məlum olduğu kimi, suyun dezinfeksiyası məqsədilə onun tərkibinə xlor əlavə olunur. Bu üsul hazırda su təchizatı ilə məşğul olan qurumlar, o cümlədən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən geniş tətbiq edilir. Xlor mikroorqanizmlərin məhv edilməsi üçün effektiv vasitə hesab olunsa da, suyun dadında və qoxusunda müəyyən dəyişiklik yarada bilir. Bu səbəbdən bir çox istehlakçı belə suyu xüsusilə təbii bulaq suyu ilə müqayisədə daha az xoş qarşılayır.



Mütəxəssislər xlorlu suyun birbaşa içilməsini məsləhət görmürlər. Xlorun miqdarını azaltmaq üçün suyun müəyyən müddət açıq qabda saxlanılması tövsiyə edilir. Çünki xlor uçucu maddədir və bir müddət sonra sudan ayrılaraq azalır. Eyni zamanda, xlorlu suyun qaynadılması da məsləhət görülmür. Yüksək temperatur təsiri ilə xlor bəzi hallarda zərərli kimyəvi birləşmələrə çevrilə bilər.

Digər tövsiyələrdən biri də içməli suyun daha çox axşam saatlarında götürülməsidir. Səhər saatlarında boru xətlərində uzun müddət qalan suda xlorun miqdarı nisbətən yüksək ola bilər ki, bu da sağlamlıq baxımından müəyyən risk yarada bilər.

Bakı şəhərinə verilən suyun codluğu məsələsi də diqqətdə saxlanılmalıdır. Suyun tərkibində kalsium və maqnezium ionlarının miqdarının yüksək olması onun codluğunu artırır. Əgər su qaynadıldıqdan sonra bir müddət sonra çöküntü əmələ gəlirsə, bu, suyun cod olduğuna işarədir. Belə hallarda suyun təkrar qaynadılması, həmçinin xüsusi filtrlərdən və su yumşaldıcı cihazlardan istifadə edilməsi tövsiyə olunur. Cod suyun uzun müddət fasiləsiz istifadə olunması bəzi hallarda qanda laxtalanmanın artmasına və damarların tutulması riskinin yüksəlməsinə səbəb ola bilər. Buna görə də suyun keyfiyyətinə nəzarət etmək və mövcud texniki vasitələrdən düzgün istifadə etmək sağlamlığın qorunması baxımından mühüm əhəmiyyət daşıyı".

***Günay Hacıyeva***

# Naxçıvan Muxtar Respublikasının Konstitusiyası: nələr dəyişir?




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq olunması barədə Sərəncam imzalayıb. Qanun 2 fevral 2026-cı ildə Azərbaycan Respublikasının Milli Məclisində qəbul olunub və Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanıb. Naxçıvan Muxtar Respublikasının hazırkı Konstitusiyası 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində qəbul edilib və 29 dekabr 1998-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalanaraq qüvvəyə minib.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında ümumilikdə 20-yə yaxın maddədə müvafiq dəyişikliklər edilib.

Dəyişikliyə əsasən, Azərbaycan Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayılmaz tərkib hissəsi olmağı ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının Preambulasında da öz əksini tapacaq.

1921-ci ildə Sovet Rusiyası ilə Türkiyə arasında bağlanan Moskva və Azərbaycan, Ermənistan və Gürcüstan sovet sosialist respublikaları ilə Türkiyə arasında imzalanan Qars müqavilələrinə istinad mətni preambuladan çıxarılıb.

Qanuna əsasən, Naxçıvan Konstitusiyasına iki yeni maddə-maddə 3-1- "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi" və maddə 28-1- "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması" əlavə edilir, 5- ci maddə- "Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi" ləğv olunur.

Konstitusiyaya əlavə edilən 3-1-ci maddəyə əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi həyata keçirir.

28-1-ci maddədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 31 deputatın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən və ya Konstitusiyanın müvafiq maddələrində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Prezidenti tərəfindən buraxılması qeyd olunur. Digər dəyişikliyə əsasən, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkiləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifləri əsasında Azərbaycan Prezidenti təyin edəcək (maddə 13, hissə II).

Sənəddə Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qapalı iclasının keçirilə bilməsi nəzərdə tutulur (maddə 18, hissə IV).

Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının statusuna dair qanunlar 31 səs çoxluğu, qalan məsələlərə dair qanunlar isə 23 səs çoxluğu ilə qəbul ediləcək (maddə 24, hissə II).

Dəyişiklik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmək üçün Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşamaq tələbini də aradan qaldıracaq (maddə 29, hissə II).

Digər dəyişiklik Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətləri başçılarının Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilməsidir (maddə 32.4-1).

Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tabe olmayacaq və iş qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirəcək (maddə 34).

Bundan əlavə, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Konstitusiya Qanununa uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin aktlarının artıq sərəncam deyil, sərəncam adlandırılması nəzərdə tutulub (maddə 33).

Həmçinin qanuna əsasən, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları yox, qanunlar qəbul ediləcək (maddə 50).

Sərəncamda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Naxçıvan Muxtar Respublikasının Konstitisiyasına edilən dəyişikliklər muxtar respublikada qanunvericilik sistemini daha da təkmilləşdirmək, idarəetmə sistemini müasir tələblərə uyğunlaşdırmaq, səlahiyyət bölgüsünü daha dəqiq məyyən etmək və dövlət idarəçiliyində çevikliyi artırmaq məqsədinə xidmət edir.

**Mətanət Məmmədova**

# Moskva Bakıya əl uzadır - Putinin zəngi nələri dəyişəcək?

*Mətləb Salahov: "Bakı ilə münasibətlərin soyuq şəkildə davam etməsi Moskva üçün ciddi itkidir"*



"Uzun müddətdir ki, məlum təyyarə qəzasından sonra Azərbaycan və Rusiya arasındakı münasibətlərdə yaranan sərinlik fonunda Rusiya Prezidenti Vladimir Putinin Prezident İlham Əliyevə zəng edərək Rusiya vətəndaşlarının İrandan təxliyəsində göstərilən operativ köməyə, həmçinin ölkəsinin İrana göndərdiyi humanitar yardımın Azərbaycan ərazisindən keçməsinə yaradılmış şəraitə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirməsi aktual məsələdir. Bu addım, ən azı uzun müddətdir iki ölkə arasındakı münasibətlərdə yaranan sərinliyin aradan qaldırılması və əlaqələri genişləndirmək baxımından əhəmiyyətli faktdır. Belə görünür ki, Rusiya hazırkı situasiyada Azərbaycanla əlaqələrin bərpası və inkişaf etdirilməsi məsələsində həmişəkindən daha çox maraqlıdır".

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, ABŞ və İsrailin İrana qarşı başlatdıqları müharibə hər an bölgədə hesablanmayan ciddi ağır fəsadlara yol açır. "Görünən odur ki, Rusiya bölgədəki iqtisadi və siyasi mərkəz halına gəlmiş Azərbaycanla humanitar məsələlər barədə və iki ölkənin gələcək münasibətləri üçün yeni səhifə açmaq fikrindədir. Çünki Moskva yenidən Bakıya əl uzatmaq və bölgədəki həssas situasiyada Azərbaycanla uzun müddətdir yaşanan gərginliyə son vermək, çoxəsrlik əlaqələri bərpa etmək istəyir. Daha neçə müddət Bakı ilə münasibətlərin soyuq şəkildə davam etməsi, sözün əsl mənasında, Moskva üçün ciddi itkidir. Kremldə də hamıya bəllidir ki, Bakı bölgənin iqtisadi və siyasi açarıdır. Qapının o üzündə qalmaq, ilk növbədə, Rusiyanın özü üçün arzuolunmaz situasiyadır".

**Afət Tahirqızı**

# Neft qiymətlərində artım: Azərbaycanın büdcəsinə təsiri nə olacaq?

*İQTİSADÇI AÇIQLADI*

Son dövrlərdə dünya bazarında neftin qiymətində müşahidə olunan artım enerji ixrac edən ölkələr üçün yeni iqtisadi imkanlar yaradır. Azərbaycan da neft və qaz ixrac edən ölkə kimi bu dəyişikliklərdən birbaşa təsirlənir. Büdcə hesablamalarında nəzərdə tutulan neft qiyməti ilə hazırkı bazar qiyməti arasındakı fərq isə əlavə gəlir ehtimalını gündəmə gətirir. Bu vəziyyət həm dövlət büdcəsinin gəlirlərinə təsiri, həm də vətəndaşların gündəlik həyatında bunun nə dərəcədə hiss olunacağı ilə bağlı sualları aktuallaşdırır.



Məsələ ilə bağlı iqtisadçı Vüqar Bayramov SİA-ya açıqlamasında bildirib ki, neftin dünya bazarındakı qiymətindəki artım Azərbaycanın dövlət gəlirlərinin və valyuta ehtiyatlarının artmasına gətirib çıxarır:



"Çünki nəzərə alsaq ki, Azərbaycan neft hasil edən və ixrac edən ölkədir, nəticə etibarilə neftin daha yüksək qiymətlərlə ixrac edilməsi ölkəyə daha çox valyutanın daxil olması deməkdir. Dövlət büdcəsi gəlirlərinin 43 faizi enerji sektorunun payına düşür. Bu vəsaitin 12,8 milyard manatı Dövlət Neft Fondundan transferlərdir, 3,6 milyard manatı isə birbaşa neft və qaz sektorundan daxilolmalardır. Bu kontekstdə, neftin dünya bazar qiymətindəki artımlar məhz həmin 3,6 milyard manatlıq hissəyə birbaşa təsir göstərəcək.

Təbii ki, maliyyə imkanlarımızın artması dövlət büdcəsinin prioritet istiqamətlərinə, o cümlədən milli təhlükəsizliyin daha da gücləndirilməsinə, işğaldan azad olunmuş ərazilərimizin bərpasına və vətəndaşlarımızın sosial təminatının daha da yaxşılaşdırılmasına daha çox vəsait ayrılmasına imkan yaradır. Sosial təminat tədbirləri hər zaman prioritet olub. Belə ki, 2025-ci ildə neftin dünya bazar qiyməti yüksək olmasa da, cənab Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanda 5-ci sosial paket həyata keçirildi və bu paket 3 milyon vətəndaşı əhatə etdi. Ona görə də sosial təminat tədbirləri Azərbaycanda həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir və 2026-cı il üçün də məhz bu istiqamətdə daha çox vəsaitin ayrılması gözlənilir".

**Arzu Qurbanlı**

# Milli təhlükəsizliyin əsas dayağı

*12 Mart Daxili Qoşunların yaranması günüdür*



Martın 12-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranması günüdür. Daxili Qoşunlar dövlətimiz və dövlətçiliyimiz uğrunda, ictimai asayişin qorunması naminə inamla, şərəflə, ləyaqətlə mübarizə aparıb və aparmaqdadır. Qürur hissi ilə deyə bilərik ki, bu gün Daxili Qoşunların maddi-texniki bazası çox yüksək səviyyədədir və Avropa standartlarına tam cavab verir. Bütün bunlar dövlətimizin başçısı İlham Əliyevin Daxili Qoşunların peşə hazırlığının yüksəldilməsi üçün göstərdiyi diqqət və qayğının nəticəsidir.1991-ci ilin dekabrında sabiq SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakıda yerləşən 5-ci diviziyası buraxılmış və heyəti 2500 nəfərdən ibarət olan üç hərbi hissə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyinə verilib. Həmin vaxtdan Azərbaycan Daxili Qoşunları Biləcəri qəsəbəsində yerləşən hərbi hissənin əsasında yaradılmağa başlanıb. Daxili Qoşunların Azərbaycan Daxili İşlər Nazirliyinin müstəqil strukturu kimi yaranması və formalaşması ölkəmizin çox çətin bir dövrünə təsadüf edib.

1992-ci il martın 12-də Daxili Qoşunların Biləcəri, Sumqayıt, Gəncə hərbi hissələri erməni işğalçılarına qarşı döyüşlərə başlayıb, Azərbaycanın ərazi bütövlüyü uğrunda Ağdam rayonunun Papravənd, Qalayçılar, Manikli, Baş Güneypəyə, Canyataq, Gülyataq kəndlərində vuruşublar. Döyüşlərdə çavuş Hətəmxan Babayev, leytenant Rafiq İsmayılov, baş leytenant Ruber Səfərəliyev Daxili Qoşunların ilk şəhidləri olublar. Həmin döyüş günü rəmzi olaraq Daxili Qoşunlar günü kimi müəyyən edilib. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə Daxili Qoşunların döyüşçüləri də qəhrəmanlıq nümunələri göstərib, şəhidlər veriblər. Döyüş əməliyyatları aparılan müddətdə qoşunların şəxsi heyətindən 496 nəfər həlak olub, 1166 nəfər yaralanıb, 268 nəfər isə itkin düşüb.

1995-ci il martın 9-da ümummilli lider Heydər Əliyevin imzaladığı müvafiq Fərmanla Azərbaycan Daxili Qoşunlarının ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşə başladıqları gün - martın 12-si Daxili Qoşunlar Günü elan olunub. Ulu öndər Heydər Əliyev Daxili Qoşunların inkişafına, möhkəmlənməsinə daim diqqət yetirib. Qoşunların formalaşmasında da Ümummilli Liderimizin misilsiz tarixi xidmətləri olub. Daxili işlər orqanlarının ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunlar ötən illərdə şərəfli yol keçib, ciddi sınaq və çətinliklərdən dəyanətlə çıxaraq inkişaf edib.

2003-cü ildən Daxili Qoşunların inkişafında yeni mərhələ başlayıb. Bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ölkənin daxili işlər orqanlarının ayrılmaz hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi, peşəkar hazırlığının yüksəldilməsi üçün daim diqqət və qayğı göstərir. Məhz bu diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycanın Daxili Qoşunları döyüş hazırlığına və maddi-texniki bazasına görə MDB məkanında ön sıradadır. Dövlətimizin başçısı Daxili Qoşunların hərbi hissələrində əsgər və qulluqçular üçün yaradılan şəraitlə mütəmadi tanış olur, onların döyüş hazırlığı ilə maraqlanır. Bölgələrdə yaradılan Daxili Qoşunların yeni hərbi hissələrinin təminatı da Prezident İlham Əliyevin diqqətindədir. Son illərdə Daxili Qoşunların maddi-texniki bazasının gücləndirilməsi prosesində şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə həyata keçirilən tədbirlər nəticəsində bütün hərbi hissələrdə yüksək şəraitin yaradılması istiqamətində xeyli iş görülüb və bu proses indi də davam edir. Hərbi hissələrdə yaradılan şərait bir daha göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində həyata keçirilən mühüm işlər çərçivəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının maddi-texniki bazası, kadr potensialı da əhəmiyyətli dərəcədə möhkəmlənib.

Bu gün əminliklə demək olar ki, Daxili Qoşunlar qarşıya qoyulan vəzifəni yüksək peşəkarlıqla yerinə yetiriblər. Ali Baş Komandanın diqqəti sayəsində Daxili Qoşunların maddi-texniki bazası, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr ən yüksək beynəlxalq standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib. Bu gün Daxili Qoşunlara göstərilən dövlət qayğısı özünü istər peşəkar kadr hazırlığının və döyüş qabiliyyətinin yüksəldilməsində, istər maddi-texniki bazanın möhkəmləndirilməsində, istərsə də yeni hərbi hissələrin açılışında daha qabarıq şəkildə göstərir.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanılıb, daxili işlər orqanlarının maddi-texniki bazası daha da möhkəmlənib, hərbi qulluqçuların sosial-məişət şəraiti yaxşılaşıb. Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarla obyekt, hərbi şəhərcik, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri tikilərək istifadəyə verilib. Daxili Qoşunlar bu gün yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik quruma çevrilib. Bir sözlə, görülmüş işlər dövlətimizin başçısı tərəfindən layiqincə qiymətləndirilir. Bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərilərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini, heç bir halda arxayınlaşmamağı tələb edir.

Bu gün Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ali diqqət və qayğısının, tələb və göstərişlərinin nəticəsi olaraq, Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir. Müzəffər Ali Baş Komandanın əmri ilə düşmən həmlələrinə qarşı keçirilən "Dəmir yumruq" əks-hücum əməliyyatlarında hərbi qulluqçularımız bunu bir daha təsdiq etdi. Hazırda Daxili Qoşunların bir çox dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri vardır. Daxili Qoşunlar Türkiyənin Jandarma Qüvvələri Baş Komandanlığı ilə sıx əməkdaşlıq edir. Bu illər ərzində Jandarm Qüvvələrinin yardımı ilə Qoşunlarda xidməti-döyüş fəaliyyəti və kadr hazırlığı işi müasir tələblərə uyğun qurulub.

Zabitlərimiz xarici ölkələrdə təhsil alırlar. Bu gün Daxili Qoşunların qarşısında duran başlıca vəzifə ölkədə sabitliyin qorunmasına xidmət etmək, müxtəlif təxribatların qarşısını almaq, vətəndaşların əmin-amanlığını qorumaqdır. Daxili Qoşunlar, həmçinin dövlət əhəmiyyətli tədbirlərdə, habelə beynəlxalq yarışlarda daxili işlər orqanlarının müvafiq qurumları ilə yanaşı, ictimai asayişin mühafizəsi və ictimai təhlükəsizliyin qorunmasının təmin olunmasında fəal iştirak edirlər.

***Nəzakət ƏLƏDDİNQIZI***




# İkili oyunlar "siyasəti"...

Azərbaycanın 44 günlük Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olmuş torpaqlarını azad və ərazi bütövlüyünü bərpa etməsi ölkəmizin dünya miqyasında gücünə yeni güc qatdı. Bu parlaq hərbi, siyasi, diplomatik qələbənin ardınca 2023-cü ilin sentyabrın 19 -da başlayan və bir neçə saatlıq antiterror tədbirləri ilə Qarabağdakı bütün separatçıların məhv edilməsi və terrorçuların əsas başçılarının həbs edilərək ədalət mühakiməsinə verməsi dünyanı çalxalandırdı. Artıq bundan sonra əksər beynəlxalq təşkilatlar, ayrı-ayrı aparıcı dövlətlər Azərbaycanın gücünü etirafa edib, hər bir qlobal məsələlərdə onunla razılaşdı. Ancaq elə xəbis, riyakar qüvvələr, dövlətlər oldu ki, onlar dünya siyasətində Azərbaycanın əsas oyunçulardan olmasını qəbul etmək istəmədilər. Müxtəlif anomal paralament qərarları ilə ölkəmizə problemlər yaratmağa çalışırlar. Xüsusilə də, Fransa, Almaniya kimi dövlətlər Azərbaycana qarşı qarayaxma kampaniyası həyata keçirməklə açıq formada məkrli niyyətlərini nümayiş etdirirlər. Təbii ki, bu məsələdə erməni lobbisinin sifarişləri də rol oynayır. Erməni lobbisindən qidalanan, maddi və mənəvi dəstək alan bəzi xarici media orqanları, "hüquq müdafiə" təşkilatları sifarişlər əsasında ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar.

## Avropa islamofobiya xəstəliyinə yoluxub

Hansı ki, sözügedən təşkilatlar islamofobiya xəstəliyinə yoluxmuş və insan hüquqları məsələsini əsassız şəkildə bəhanə edərək müsəlman ölkələrinə qarşı kampaniya aparmaq missiyasını yerinə yetirməklə məşğuldurlar. "Human Rights Watch", "Freedom House", "Amnesty International" kimi təşkilatların söz və fikir azadlığından, insan hüquqlarına münasibətdən danışmaları gülünc və istehza doğurur. Çünki onların bağlandıqları və maliyyə yardımları aldıqları ölkələrdə ciddi mətbuat azadlığı problemləri mövcuddur, addımbaşı insan hüquqları kobud şəkildə pozulur. Aparılan araşdırmalara və əldə olunan məlumatlara istinadən demək olar ki, Avropanın bəzi dövlətləri Latın Amerkasından, Asiya və Afrikadan gələn insanlar üçün təhlükə mənbəyinə çevrilib. Əksər hallarda Avropaya üz tutan qeyri-avropalılar orada təqib olunur, döyülür, zorakılığa məruz qalırlar. Bunu Avropa ölkələrinin bəzi vətəndaş cəmiyyətinin nümayəndələri, eləcə də müstəqil mövqeli parlament üzvləri də təsdiq edirlər. Avropaya gedən insanların 55 faizi qeyd edirlər ki, Fransa, Almaniya və Niderlanda onlara qarşı zorakılıq hallarına yol verilir, 37 faizi deyir ki, irqi diskriminasiyanın qurbanı olub.

## Fransa insanlıq üçün təhlükə mənbəyidir

Bütün və digər faktlar təsdiq edir ki, Avropa ölkələrində diskriminasiya və nasizm geniş vüsət alır. Bu sahədə cinayətlərin sayı da xeyli artıb. Məsələn, Almaniyada türklər, balkan əsillilər daha çox təzyiqlərə məruz qalırlar. Almaniyada yaşayan türklərin 52 faizi, balkan əsillilərin isə 46 faizi hesab edir ki, bu ölkədə ksenofobiya "çox yüksək səviyyədə inkişaf edir".

Diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan ərazisində yaradılmağa cəhd edilmiş erməni separatizmini məhv etdikdən sonra Avropanın bəzi dövlətləri terrorçulara dəstək verən açıqlamalar yayır, anomal fikirlər səsləndirirlər. Bir qədər əvvəl Böyük Britaniyanın parlamentində Azərbaycan qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun şəkildə aparılan məhkəmə prosesində layiqli cəzalarını alan Ermənistan vətəndaşları olan hərbi canilərlə bağlı araşdırmalar aparacaqları barədə müzakirələr qurmaları birabaşa separatizmə və terrorçuluğa dəstək verilməsi deməkdir. Haqlı olaraq onların bu cür absurd müzakirələr Azərbaycanda və dünyanın əksər ölkələrində sərt şəkildə qınanılır. Halbuki, Böyük Britaniyada, Fransada, İtaliyada, Belçikada, İspaniyada separatizm baş qaldıran zaman onun qarşısı sərt hərbi tədbirlərərin görülməsi ilə aradan qaldırılıb. Bir qədər əvvəl İspaniya Katoloniyada və Barselonada geniş vüsət almış separatizmi ağır texnikadan və müasir silahlardan istifadə etməklə zərərsizləşdirdi və başçılarını həbs edərək ömürlük azadlıqdan məhrum etdi.

İtaliyanın Sardiniya, Belçikanın Valloniya bölgəsində mülki vətəndaşlara təhlükə yaradan separatçılara qarşı qırıcı təyyarələrdən, tanklardan istifadə etməklə məhv etdilər. Nəticədə, onlarla separatçı və dinc sakin həyatlarını itirdilər. Fransa müasir dünyanın gözü qarşısında müstəmləkə altında saxladığı xalqlara qarşı açıq soyqırımı siyasəti həyata keçib və bu gün də insanlıq üçün təhlükə mənbəyi olan cinayətlərini davam etdirir. Ona görə də, bu dövlətlərin, ümumilikdə Avropa İttifaqının Azərbaycanın iç məsələlərinə burunlarını soxmaları yersiz və ədəbsizlikdir. Azərbaycan düzgün və əsaslı siyasət aparır və bu siyasət ölkə əhalisinin sabitliyinin təmin olunmasına, eləcə də regionda sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət edir.

***İLHAM ƏLİYEV***

# Planet isinir: hər onillikdə 0,35C dərəcə

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb

***Potsdam İqlim Təsiri Tədqiqatları İnstitutunun alimləri tərəfindən aparılan son araşdırma göstərir ki, bəşəriyyət planeti əvvəlkindən daha sürətli qızdırır. Tədqiqatçılar El-Ninyo kimi təbii dalğalanmalar istisna olmaqla, hər on ildə təxminən 0,35C-yə kəskin yüksəliş aşkar edirlər. Son qızmar temperaturların arxasında təbii amillərin təsirini istisna edən tədqiqata görə, iqlim dəyişikliyi daha sürətlə baş verir və istiləşmə sürəti demək olar ki, ikiqat artır.***







Məlum olub ki, qlobal istiləşmə 1970-2015-ci illər arasında on ildə 0,2C-dən az olan sabit bir tempdən son 10 ildə təxminən 0,35C-yə qədər sürətlənib. Bu nisbət, alimlərin 1880-ci ildə Yer kürəsinin temperaturunu sistematik şəkildə ölçməyə başladığı vaxtdan bəri müşahidə etdiklərindən daha yüksəkdir. "Son 10 ilin istiləşmə sürəti davam edərsə, bu, 2030-cu ilə qədər Paris razılaşmasının 1,5C (2,7F) həddinin uzunmüddətli aşılmasına səbəb olacaq", - deyə Potsdam İqlim Təsiri Tədqiqatları İnstitutunun alimi və tədqiqatın həmmüəllifi Stefan Rahmstorf bildirib.

"The Gurardian" yazır ki, son illərdə həddindən artıq istilər günəş dövrləri, vulkan püskürmələri və El Ninyo hava şəraiti kimi təbii dalğalanmalar səbəbindən daha da artıb və bu da alimləri heyrətamiz temperatur göstəricilərinin kənar göstəricilər olub-olmadığını, yoxsa qlobal istiləşmənin artmasının nəticəsi olduğunu şübhə altına almağa vadar edib. Qeyd edək ki, El Ninyo Sakit okeanın ekvator hissəsində suyun temperaturunun adi haldan daha çox istiləşməsi nəticəsində yaranan böyük iqlim hadisəsidir. Bu hadisə dünyanın müxtəlif yerlərində hava şəraitini dəyişə bilər.

Tədqiqatçılar, alimlərin Yer kürəsinin temperaturunu ölçmək üçün tərtib etdikləri beş əsas məlumat dəstində qeyri-insani amillərin təxmin edilən təsirini süzgəcdən keçirmək üçün səs-küyün azaldılması metodundan istifadə ediblər. Onların hər birində 2013 və ya 2014-cü illərdə qlobal istiləşmənin sürətlənməsi müşahidə olunub. "Son illərdə istiləşmənin aşkar edilə bilən sürətlənməsinin olduğuna dair kifayət qədər geniş yayılmış razılaşma mövcuddur", - tədqiqatda iştirak etməyən ABŞ-nin iqlim dəyişikliklərini araşdıran müstəqil elmi tədqiqat təşkilatı "Berkeley Earth"in iqlim alimi Zeke Hausfather bildirib. "Lakin, son on ildə əlavə istiləşmənin nə qədərinin məcburi reaksiya və məcburi olmayan dəyişkənlik olduğu hələ də məlum deyil."

Yer kürəsini bürüyən karbon çirklənməsi örtüyü planeti sənayeləşmədən əvvəlki səviyyələrdən bəri təxminən 1,4C qızdırıb və bu, müvəqqəti rahatlıq təmin edən soyuducu kükürd çirkləndiricilərinin son zamanlar azalması ilə daha da çətinləşib. Hausfatherin keçən il həmmüəllifi olduğu bir araşdırma da iqlimin pozulmasının sürətlendiyini, lakin yeni tədqiqatdan bir qədər yavaş, on ildə 0,27C olduğunu aşkar edib. "Hər iki halda da, bu, istiləşmə sürətində əhəmiyyətli bir artımı təmsil edir", deyə Hausfather bildirib. Onun sözlərinə görə bu narahatedici olmalıdır, çünki dünya bu onilliyin sonunda 1,5C-ni keçməyə doğru irəliləyir.

Tədqiqatçılar sürətlənmənin iqlim modellərinin əhatə dairəsinə düşdüyünü bildiriblər. Aİ-nin Kopernik xidməti tərəfindən təqdim və təhlil edilən məlumata əsasən, istiləşmə sürəti yavaşlamasa, dünya bu il uzunmüddətli istiləşmə üçün 1,5C həddini keçəcək. Kaliforniya Universitetinin Santa Kruzdakı iqlim alimi Klodi Bolyu bildirib ki, tapıntılar göstərir ki, daha sürətli istiləşmə davam edərsə, istiləşməni sənaye öncəsi səviyyələrdən 2C-yə qədər məhdudlaşdırmaq üçün pəncərə əhəmiyyətli dərəcədə daralacaq.

"Lakin vacib bir xəbərdarlıq odur ki, sürətlənmə müvəqqəti ola bilər", - deyə bu məsələ ilə bağlı məqalələr dərc edən, lakin yeni tədqiqatda iştirak etməyən Bolyu bildirib. O, əlavə edib ki, 1998-ci ildəki güclü El Ninyo da anomal istiləşmə dövrünə səbəb olub.

Ümumdünya Meteorologiya Təşkilatı təsdiqləyib ki, son üç il rekord tarixə malik ən isti üç illik dövr olub. Alimlər planetin istiləşməsinə səbəb olan çirklənmənin rekord səviyyələrini qeyd etməyə davam edərkən, planetin karbon çöküntülərinin - atmosferdən CO2-ni çıxaran təbii sistemlərin sıradan çıxmağa başlaya biləcəyi ilə bağlı qorxuları artırırlar. Rahmstorf deyir ki, Yer kürəsinin nə qədər tez isinməyə davam etməsi nəticə etibarilə qalıq yanacaqlardan qlobal CO2 tullantılarını nə qədər sürətlə sıfıra endirməyimizdən asılıdır.

***Lalə Mehralı***

# "Üç həftədən artıq davam edən öskürək araşdırılmalıdır"

*Mərkəzi Gömrük Hospitalının terapevti Xumar Novruzova ilə müsahibə*

***Son günlər həm uşaqlar, həm də böyüklər arasında öskürək hallarında artım müşahidə olunur. Bəzən insanlar öskürəyi sadə soyuqdəymə əlaməti kimi qiymətləndirir və uzun müddət davam etsə belə buna ciddi yanaşmırlar. Halbuki bəzi hallarda uzunmüddətli öskürək müxtəlif xəstəliklərin göstəricisi ola bilər. Mövzu ilə bağlı Mərkəzi Gömrük Hospitalının terapevti Xumar Novruzova suallarımızı cavablandırıb.***

***- Xumar həkim, son günlər öskürək hallarının artmasının əsas səbəbləri nələrdir? Bu daha çox mövsümi viruslarla bağlıdır, yoxsa digər amillər də rol oynayır?***

- Hazırda müşahidə olunan öskürək hallarının böyük hissəsi mövsümi respirator virus infeksiyaları ilə bağlıdır. Payız-qış və erkən yaz mövsümündə virusların yayılması artır və bu da yuxarı tənəffüs yollarının iltihabı ilə nəticələnir. Bununla yanaşı, hava çirklənməsi, allergik reaksiyalar, temperatur dəyişiklikləri və bəzən quru hava da öskürəyin yaranmasına və ya daha uzun müddət davam etməsinə səbəb ola bilər.

***- Virus infeksiyaları zamanı öskürək adətən nə qədər davam edir?***

- Virus infeksiyaları zamanı öskürəyin davametmə müddəti xəstəliyin gedişindən asılıdır. Adətən xəstəliyin ilk 3-5 günü başlanğıc mərhələ hesab olunur. Bu dövrdə qızdırma, halsızlıq, boğaz ağrısı kimi əlamətlərlə yanaşı öskürək də müşahidə edilir.



Sonrakı mərhələdə, təxminən 7-10 gün ərzində öskürək daha aktiv dövrünü yaşayır. Bəzi insanlarda isə virusdan sonra "postviral öskürək" adlanan vəziyyət yarana bilər. Bu zaman öskürək 2-3 həftəyə qədər davam edə bilər. Bunun əsas səbəbi virusdan sonra bronxların selikli qişasının bir müddət həssas qalmasıdır.

***- Öskürək hansı hallarda artıq ciddi qəbul edilməli və həkimə müraciət olunmalıdır?***

- Öskürək 3 həftədən artıq davam edərsə, artıq uzunmüddətli sayılır və səbəbin müəyyənləşdirilməsi üçün mütləq həkim müayinəsi aparılmalıdır. Bundan əlavə aşağıdakı hallarda gecikmədən həkimə müraciət etmək vacibdir:

* öskürək 2-3 həftədən çox davam edərsə
* qızdırma 3 gündən artıq qalarsa
* nəfəs darlığı və ya sinə ağrısı yaranarsa
* bəlğəm sarı-yaşıl rəngdə və ya qan qarışıqlı olarsa
* güclü halsızlıq və başgicəllənmə müşahidə edilərsə

Xüsusilə uşaqlarda, yaşlı insanlarda və xroniki xəstəlikləri olan şəxslərdə bu əlamətlər daha diqqətlə qiymətləndirilməlidir.

***- Öskürəyin quru və ya bəlğəmli olması xəstəliyin gedişi haqqında nə deyə bilər?***

- Virus infeksiyalarında öskürək çox vaxt əvvəlcə quru xarakterli olur. Bir neçə gün sonra isə bəlğəmli öskürəyə çevrilə bilər. Bu, bronxların selikli qişasının infeksiyaya reaksiyası ilə bağlıdır. Tənəffüs yolları bərpa olunduqca öskürək tədricən azalır və aradan qalxır.

***- İnsanlar öskürəyin qarşısını almaq və ya ağırlaşmaların riskini azaltmaq üçün nə etməlidirlər?***

- Ən vacib məqam vaxtında müalicə və profilaktik tədbirlərdir. Virus infeksiyaları zamanı kifayət qədər istirahət etmək, bol maye qəbul etmək, otağın havasını mütəmadi dəyişmək və həkimin tövsiyə etdiyi müalicə üsullarına əməl etmək vacibdir. Uzun müddət davam edən və ya digər ciddi simptomlarla müşayiət olunan öskürək hallarında isə özünü müalicə ilə məşğul olmaq düzgün deyil.

Mütəxəssis vurğulayır ki, öskürək çox vaxt sadə respirator infeksiyanın əlaməti olsa da, 3 həftədən artıq davam edən hallarda səbəbin araşdırılması və vaxtında həkimə müraciət edilməsi sağlamlığın qorunması baxımından böyük əhəmiyyət daşıyır.

***Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Borcu qaytarmayan şəxsin əmlakına və bank hesabına məhdudiyyət qoyula bilərmi?




"Son vaxtlar çox rast gəldiyimiz hallardan biri də borcun qaytarılmaması və yazılı şəkildə heç bir sənədin olmamasıdır". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyin sədri Fariz Əkbərov deyib. O bildirib ki, ümumiyyətlə, borc müqaviləsi həm yazılı, həm də şifahi bağlana bilər: "Hər bir halda borc verərkən yazılı sənədin, müqavilənin olması məqsədəuyğundur, çünki borc qaytarılmadığı halda yazılı sənədlər sübut kimi çıxış edir. Lakin yazılı sənəd olmadıqda isə borcun məbləği, borc verdiyiniz şəxsin kimliyi və s. məlumatları sübut etmək çətindir.

Borcun məbləği 3000 manat və daha çox olduqda, yaxud da tərəflərdən biri hüquqi şəxs olduqda isə borc müqaviləsi mütləq yazılı formada bağlanmalıdır. Mülki qanunvericiliyin tələbinə əsasən borc müqavilə əsasında verilir. Mülki Məcəllənin 739.1-ci maddəsinə əsasən borc müqaviləsinə görə bir tərəf (borcverən) pul vəsaitinə və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər tərəfə (borcalana) verməyi öhdəsinə götürür, borcalan isə aldıqlarını müvafiq olaraq eyni məbləğdə pul vəsaiti və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borcverənə qaytarmağı öhdəsinə götürür. Həmin Məcəllənin 739.2-ci maddəsinə əsasən borc müqaviləsi predmetinin məbləği üç min manatdan çoxdursa və ya məbləğindən asılı olmayaraq, müqavilənin iştirakçılarından biri hüquqi şəxsdirsə, borc müqaviləsi yazılı formada bağlanılmalıdır. Mülki Məcəllənin 740-cı maddəsinə əsasən qanunda və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, borcverən borcalandan müqavilədə nəzərdə tutulmuş qaydada və məbləğdə faiz almaq hüququna malikdir. Bu Məcəllədə ayrı qayda nəzərdə tutulmayıbsa, borcun verilməsinə görə faizin və (və ya) digər haqqın məbləği və ya hesablanma qaydası tərəflərin razılaşması ilə müəyyən edilir.



Əgər borcalan sizi aldadarsa, borcu geri qaytarmazsa, bu zaman borcun geri qaytarılması üçün ərazi üzrə polis idarəsinə müraciət edə bilərsiniz. Əgər həmin şəxsin əməlində dələduzluq cinayətinin tərkibi aşkarlanarsa və bu, sübuta yetirilərsə, o zaman borcalan cinayət məsuliyyətinə cəlb oluna bilər.

Yox əgər sübuta yetirilməzsə, mülki qaydada məhkəməyə iddia ərizəsi ilə müraciət edərək qarşı tərəfdən borc məbləğini tələb edə bilərsiniz. Əgər məhkəmə pul tələbinə dair iddianız üzrə iddia tələbinizi təmin edərsə, bununla bağlı qətnamə çıxarır və qətnamə qüvvəyə mindikdən sonra icraya yönəlir. Borclu şəxs həmin qətnaməni icra etməzsə, inzibati və cinayət məsuliyyəti daşıya bilər.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsinə əsasən icra sənədindəki tələbin üzrsüz səbəbdən icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə icra edilməməsinə və ya icra məmurunun məhkəmə və ya başqa dövlət orqanlarının qərarlarının icrası ilə əlaqədar digər qanuni tələblərinin yerinə yetirilməməsinə görə fiziki şəxslər 500 manatdan 1000 manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər 1200 manatdan 2500 manatadək məbləğdə, hüquqi şəxslər 3000 manatdan 5000 manatadək məbləğdə cərimə edilir. Bundan başqa Cinayət Məcəlləsinin 306.1-ci maddəsinə əsasən qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə 2000 manatdan 4000 manatadək miqdarda cərimə və ya 320 saatdan 480 saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır".

***Ayşən Vəli***

## Bakıda hansı sahələrdə 4 mindən çox maaş VERİLİR?

2025-ci ildə Bakıda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 1381 manat təşkil edib. Bu barədə Bakı Şəhər Statistika İdarəsi məlumat yayıb. Bildirilib ki, paytaxtda orta aylıq əməkhaqqı 2024-cü illə müqayisədə 8,6 faiz artıb. Qeyd edək ki, 2025-ci ilin ilkin məlumatlarına əsasən, ölkə üzrə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı da artaraq 1102,9 manat olub. Bu göstərici 2024-cü illə müqayisədə 9,3 faiz çoxdur.



Statistik məlumatlara görə, Bakıda əməkhaqqı səviyyəsinə görə ən yüksək gəlir mədənçıxarma sənayesində qeydə alınıb və bu sahədə orta aylıq əməkhaqqı 4028,4 manat təşkil edib. İkinci yerdə maliyyə və sığorta fəaliyyəti (2877,6 manat), üçüncü yerdə isə informasiya və rabitə sahəsi (1883,8 manat) qərarlaşıb. Nisbətən yüksək maaş verilən digər sahələrə peşə, elmi və texniki fəaliyyət (1831,8 manat), dövlət idarəetməsi və müdafiə, sosial təminat (1669,2 manat) və nəqliyyat və anbar təsərrüfatı (1559,2 manat) daxildir.

Digər sahələrdə isə orta aylıq əməkhaqqı daha aşağıdır. Belə ki, elektrik enerjisi, qaz və buxar istehsalı və təchizatı sahəsində əməkhaqqı 1323,5 manat, tikintidə 1221,2 manat, daşınmaz əmlakla əlaqədar əməliyyatlarda 1130,3 manat, istirahət, əyləncə və incəsənət sahəsində 1072,6 manat, emal sənayesində 1002,3 manat təşkil edir. Beləliklə, statistik göstəricilər paytaxtda ən yüksək əməkhaqqının sənaye və maliyyə sektorlarında, ən aşağı əməkhaqqının isə xidmət və kənd təsərrüfatı sahələrində olduğunu göstərir.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000